Təhsil Nazirliyinin Azərbaycan İntellektual Klublar Assosiasiyası ilə birlikdə təşkil etdiyi çempionatda ümumi təhsil müəssisələrinin 7-10-cu sinif şagirdləri iştirak edib.

Çempionatın əsas məqsədi gənclərin intellektual və yaradıcılıq bacarıqlarının inkişafına kömək etməkdən, eləcə də yüksək yaradıcılıq qabiliyyətinə, intellektual potensiala və müxtəlif sahələrdə dərin biliklərə malik gənclərin aşkara çıxarılaraq inkişaf etdirilməsinə şərait yaratmaqdan ibarətdir.

İntellektual oyunlar ətraf bölgələri əhatə etməklə Gəncə, Şəmkir, Mingəçevir, Şirvan, İmişli, Lənkəran, Sumqayıt, Quba, Zaqatala və Göyçayda təşkil olunub. Zonalar üzrə Şəmkir, Gəncə, Lənkəran, Cəbrayıl, Kürdəmir, Zaqatala, Naftalan, Sumqayıt, Qobustan, Quba rayon və şəhərlərin komandaları qalib gəlib və regional çempion adına layiq görülüblər. Qaliblərə Təhsil nazirliyinin Fəxri Fərmanları, qızıl medallar və kubok təqdim olunub.

Qalib komandalar müvafiq televiziya kanalı tərəfindən həyata keçiriləcək Breyn-Rinq oyunlarında iştirak hüququ qazanacaq və televiziya çəkilişlərinə dəvət olunacaqlar.

Bakı şəhəri üzrə Regional Çempionat isə mayın 9-da keçiriləcək və ümummilli lider Heydər Əliyevin doğum gününə həsr ediləcək.